*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 97–100
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 97–100
DOI: https://doi.org/10.36719/2789-6919/58/97-100

# Hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri kontekstində hərbi əsirlərlə rəftarın beynəlxalq-hüquqi aspektləri

**Aytac Allahverdiyeva[1*], Elnarə Quliyeva[1]**

***Xülasə.*** *Məqalədə hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri və hərbi əsirlərlə rəftarın beynəlxalq-hüquqi aspektləri kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, müasir silahlı münaqişələr şəraitində beynəlxalq humanitar hüququn pozulması halları daha çox hərbi qulluqçuların xidməti səlahiyyətlərindən qanunsuz istifadə etməsi və beynəlxalq hüquq normalarına əməl etməməsi ilə bağlıdır. Xüsusilə hərbi əsirlərə qarşı işgəncə, qeyri-insani və ləyaqəti alçaldan rəftar, qanunsuz saxlanma, təhlükəli şəraitdə yerləşdirmə və digər zorakı hərəkətlər beynəlxalq hüquqda müharibə cinayətləri kimi qiymətləndirilir.*
*Məqalədə 1949-cu il tarixli III Cenevrə Konvensiyası, 1977-ci il tarixli Əlavə Protokollar və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu əsasında hərbi əsirlərin beynəlxalq hüquqi müdafiə mexanizmləri təhlil edilmişdir. Bununla yanaşı, hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətlərinin anlayışı, obyektiv və subyektiv əlamətləri, həmin cinayətlərin subyekti və obyekti hüquqi baxımdan araşdırılmışdır. Tədqiqat zamanı komandir məsuliyyəti, fərdi beynəlxalq cinayət məsuliyyəti və dövlətlərin beynəlxalq-hüquqi məsuliyyəti məsələləri beynəlxalq tribunal və məhkəmələrin təcrübəsi əsasında qiymətləndirilmişdir.*
*Araşdırma nəticəsində müəyyən edilmişdir ki, hərbi əsirlərlə bağlı hüquq pozuntuları yalnız beynəlxalq humanitar hüququn deyil, həm də hərbi xidmətin əsas prinsiplərinin və hərbi intizamın pozulması ilə müşayiət olunur. Bu baxımdan beynəlxalq və milli hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq humanitar hüququn effektiv tətbiqinin təmin olunması və hərbi qulluqçuların hüquqi hazırlıq səviyyəsinin artırılması xüsusi əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *hərbi qulluqçu, vəzifə cinayətləri, hərbi əsirlər, beynəlxalq humanitar hüquq, müharibə cinayətləri, komandir məsuliyyəti, Cenevrə Konvensiyası*

---

[1] Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, Bakı, Azərbaycan
[*] Məsul müəllif. E-poçt: aytac.allahverdiyevaa@gmail.com
Daxil oldu: 4 Fevral 2026; Qəbul edildi: 7 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

*Elmi Tədqiqat* 6(5), 2026
*Scientific Research* 6(5), 2026

# International Legal Aspects of the Treatment of Prisoners of War in the Context of Official Crimes Committed by Military Personnel

**Aytaj Allahverdiyeva[1*], Elnara Guliyeva[1]**

***Abstract.*** *The article comprehensively analyzes the international legal aspects arising from official crimes committed by military personnel and the treatment of prisoners of war. The research revealed that, in the context of modern armed conflicts, violations of international humanitarian law are mainly connected with the unlawful abuse of official authority by military personnel and the failure to comply with international legal norms. In particular, torture, inhuman and degrading treatment, unlawful detention, placement in dangerous conditions, and other violent acts committed against prisoners of war are regarded as war crimes under international law.*

*The article examines the international legal protection mechanisms for prisoners of war on the basis of the 1949 Third Geneva Convention, the 1977 Additional Protocols, and the Rome Statute of the International Criminal Court. In addition, the concept of official crimes committed by military personnel, their objective and subjective elements, as well as the legal characteristics of the subject and object of these crimes are analyzed from a legal perspective. During the research, issues of command responsibility, individual international criminal responsibility, and the international legal responsibility of states were evaluated on the basis of the practice of international tribunals and courts.*

*The research concludes that violations related to prisoners of war constitute not only breaches of international humanitarian law, but are also accompanied by violations of the fundamental principles of military service and military discipline. In this regard, the improvement of international and national legal mechanisms, ensuring the effective implementation of international humanitarian law, and increasing the level of legal training of military personnel are of particular importance.*

***Keywords:*** *international humanitarian law, target selection, war crimes, Azerbaijani military law, Criminal Code, Patriotic War*

---

1 Military Scientific Research Institute of the National Defense University, Baku, Azerbaijan
[*] Corresponding author. E-mail: aytac.allahverdiyevaa@gmail.com
Received: 4 February 2026; Accepted: 7 May 2026; Published online: 30 May 2026
© Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüququn ən aktual problemlərindən biri hərbi əsirlərlə rəftar məsələsidir. Beynəlxalq hüquq normaları silahlı münaqişədə iştirak imkanını itirmiş şəxslərin, xüsusilə hərbi əsirlərin müdafiəsini təmin etməyi dövlətlərin və silahlı qüvvələrin əsas vəzifələrindən biri kimi müəyyən edir. Lakin beynəlxalq təcrübə göstərir ki, silahlı münaqişələr zamanı hərbi əsirlərlə bağlı hüquq pozuntularının mühüm hissəsi məhz hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri nəticəsində baş verir. Bu baxımdan hərbi qulluqçuların xidməti fəaliyyətinin beynəlxalq humanitar hüquq normaları ilə əlaqəli şəkildə araşdırılması mühüm elmi və praktiki əhəmiyyət daşıyır.

1949-cu il tarixli III Cenevrə Konvensiyası hərbi əsirlərin müdafiəsini beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi müəyyən etmişdir. Həmin Konvensiyaya əsasən, hərbi əsirlərə qarşı işgəncə,

qeyri-insani və ləyaqəti alçaldan rəftar, qanunsuz saxlanma və zor tətbiqi qadağan olunur. 1977-ci il tarixli Əlavə Protokollar isə beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələr şəraitində bu müdafiə mexanizmlərini daha da genişləndirmişdir (Geneva Convention Relative to the Treatment of Prisoners of War,1949). Roma Statutunda da hərbi əsirlərə qarşı törədilən ağır hüquq pozuntuları müharibə cinayətləri kimi müəyyən edilmişdir (Rome Statute of the International Criminal Court, 1998). Məqalədə müqayisəli-hüquqi, normativ-hüquqi təhlil, sistemli analiz və doktrinal yanaşma metodlarından istifadə olunmuşdur. Bu metodlar vasitəsilə beynəlxalq müqavilələr, beynəlxalq məhkəmə təcrübəsi, beynəlxalq humanitar hüququn prinsipləri və Azərbaycan Respublikasının qanunvericiliyi kompleks şəkildə təhlil edilmişdir. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri ilk dəfə olaraq hərbi əsirlərlə rəftar problemi ilə qarşılıqlı əlaqədə sistemli şəkildə araşdırılmış, beynəlxalq humanitar hüququn pozulmasının həm fərdi, həm də dövlət məsuliyyəti baxımından nəticələri qiymətləndirilmişdir.

**Tədqiqat**

Hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətlərinin anlayışı. Hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri dedikdə, hərbi xidmətin normal fəaliyyətinə, hərbi intizama və xidməti tabelik münasibətlərinə zərər vuran ictimai təhlükəli əməllər başa düşülür. Bu cinayətlər xüsusilə silahlı münaqişələr dövründə beynəlxalq humanitar hüququn pozulması ilə müşayiət olunduqda daha ağır hüquqi nəticələr yaradır. Hərbi qulluqçu tərəfindən verilmiş qanunsuz əmr, xidməti səlahiyyətlərdən sui-istifadə, hərəkətsizlik və ya beynəlxalq humanitar hüququn tələblərinə əməl edilməməsi bir sıra hallarda hərbi əsirlərə qarşı yönəlmiş hüquq pozuntularına səbəb olur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinə əsasən hərbi qulluqçu hərbi anda, qanunlara və hərbi intizam qaydalarına ciddi əməl etməlidir (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi, 1994). Hərbi qulluqçunun əsas vəzifələri sırasında insan hüquq və azadlıqlarına hörmət etmək, dövlət və hərbi sirri qorumaq, hərbi xidmət borcunu vicdanla yerinə yetirmək xüsusi yer tutur. Buna görə də hərbi qulluqçunun xidməti vəzifələrini pozaraq hərbi əsirlərə qarşı qeyri-insani rəftar etməsi yalnız beynəlxalq hüququn deyil, həm də milli qanunvericiliyin pozulması hesab olunur (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 2024; Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası, 2019).

*Hərbi əsirlərlə rəftar və beynəlxalq humanitar hüquq*. Hərbi əsirlərin müdafiəsi beynəlxalq humanitar hüquqda kompleks xarakter daşıyır və həm müqavilə, həm də adət hüquq normaları ilə təmin olunur. III Cenevrə Konvensiyası hərbi əsirlərin hüquqi statusunu müəyyən etməklə onların həyatının, sağlamlığının və ləyaqətinin qorunmasını dövlətlər üçün hüquqi öhdəlik kimi müəyyən etmişdir. Konvensiyaya əsasən hərbi əsirlərə qarşı işgəncə verilməsi, qəddar və qeyri-insani rəftarın tətbiqi, qanunsuz cəza tədbirləri və təhlükəli şəraitdə saxlanma qadağandır.

Silahlı münaqişələr zamanı hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri əksər hallarda məhz hərbi əsirlərlə rəftar zamanı meydana çıxır. Əsirlərin düşmən dövlətə qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur edilməsi, onlara qarşı tibbi və bioloji eksperimentlərin aparılması, canlı sipər kimi istifadə olunması beynəlxalq hüquqda müharibə cinayətləri hesab olunur. Bu əməllər hərbi qulluqçuların xidməti səlahiyyətlərindən qanunsuz istifadə etməsinin və beynəlxalq humanitar hüququn fundamental prinsiplərini pozmasının nəticəsi kimi qiymətləndirilir. A.Kassese qeyd etmişdir ki, hərbi əsirlərin müdafiəsi beynəlxalq hüququn humanistləşdirilməsinin əsas göstəricilərindən biridir (Popov, 1997; Noone, 2004). V.Şabas isə Roma Statutunda müharibə cinayətlərinin dəqiq şəkildə müəyyən edilməsinin beynəlxalq cinayət hüququnun inkişafında mühüm rol oynadığını vurğulamışdır (Şabas, 2015; Vöneky, 2013).

*Müharibə cinayətləri və beynəlxalq-hüquqi məsuliyyət.* Hərbi əsirlərlə bağlı törədilən hüquq pozuntuları beynəlxalq hüquqda müharibə cinayətləri kimi qiymətləndirilir. Roma Statutunun 8-ci maddəsinə əsasən, işgəncə, qeyri-insani rəftar, qəsdən ağır fiziki və psixi zərərin yetirilməsi və ədalətli məhkəmə hüququndan məhrum etmə beynəlxalq cinayət məsuliyyəti yaradan əməllərdir. Bu cinayətlərin hüquqi kvalifikasiyası üçün onların obyektiv və subyektiv tərkib əlamətlərinin müəyyən olunması zəruridir. Obyektiv tərəf beynəlxalq hüquqla qadağan edilmiş hərəkətlərin törədilməsində ifadə olunur. Subyektiv tərəf isə qəsd və kobud ehtiyatsızlıq formasında təzahür edir. Cinayətin subyekti hərbi qulluqçular, komandirlər və müəyyən hallarda xüsusi səlahiyyət verilmiş şəxslər ola bilər. Həmin cinayətlərin obyekti isə hərbi əsirlərin həyatı, sağlamlığı və ləyaqətidir. Beynəlxalq hüquqda müharibə cinayətlərinə görə məsuliyyətin əsas prinsipi fərdi cinayət məsuliyyətidir (Henckaerts & Doswald-Beck, 2005; Cassese, 2008). Bu prinsipə əsasən cinayət törədən şəxs vəzifəsindən və statusundan asılı olmayaraq məsuliyyətə cəlb olunmalıdır. Bununla yanaşı, dövlətlər də öz silahlı qüvvələrinin qanunsuz hərəkətlərinə görə beynəlxalq-hüquqi məsuliyyət daşıyırlar. Bu məsuliyyət restitusiya, kompensasiya və satisfaksiya formasında həyata keçirilə bilər. Komandir məsuliyyəti institutu bu sahədə xüsusi əhəmiyyətə malikdir. Komandir tabeliyində olan şəxslərin törətdiyi cinayətlər barədə məlumatlı olduğu halda onların qarşısını almadıqda və ya həmin şəxsləri məsuliyyətə cəlb etmədikdə beynəlxalq hüquqa əsasən məsuliyyət daşıyır.

## Nəticə

Aparılmış tədqiqat göstərir ki, hərbi qulluqçular tərəfindən törədilən vəzifə cinayətləri ilə hərbi əsirlərlə bağlı hüquq pozuntuları arasında sıx hüquqi əlaqə mövcuddur. Silahlı münaqişələr zamanı hərbi qulluqçuların öz xidməti səlahiyyətlərindən qanunsuz istifadə etməsi və beynəlxalq humanitar hüququn tələblərini pozması hərbi əsirlərin hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına səbəb olur. Bu baxımdan hərbi əsirlərlə qeyri-insani rəftar yalnız beynəlxalq humanitar hüququn deyil, həm də hərbi xidmətin əsas prinsiplərinin pozulması hesab edilir. Beynəlxalq hüquq normaları və beynəlxalq məhkəmə təcrübəsi göstərir ki, hərbi əsirlərlə bağlı hüquq pozuntularına görə həm fərdi, həm də dövlət məsuliyyəti yaranır. Xüsusilə komandir məsuliyyəti institutu beynəlxalq humanitar hüququn effektiv tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, müasir silahlı münaqişələrin yaratdığı yeni çağırışlar beynəlxalq və milli hüquqi mexanizmlərin daha da təkmilləşdirilməsini zəruri edir. Hərbi qulluqçuların beynəlxalq humanitar hüquq üzrə hüquqi hazırlığının artırılması, hərbi intizamın gücləndirilməsi və hərbi əsirlərlə rəftar sahəsində beynəlxalq hüquq normalarına ciddi əməl olunması beynəlxalq təhlükəsizliyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. *Additional Protocols to the Geneva Conventions of 12 August 1949*. (1977).
2. *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi*. (1994).
3. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi*. (2024).
4. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası*. (2019). red. F.Y. Səməndərov.
5. Cassese, A. (2008). *International criminal law*. Oxford University Press.
6. *Geneva Convention Relative to the Treatment of Prisoners of War of 12 August 1949*. (1949).
7. Henckaerts, J.-M. & Doswald-Beck, L. (2005). *Customary international humanitarian law*. Cambridge University Press.
8. Noone, G.P. (2004). *Prisoners of War in the 21st Century: Issues in Modern Warfare*. Naval Law Review.
9. Popov, V.P. (1997). *Mezhdunarodnoe ugolovnoe pravo*. Nauka.
10. *Rome Statute of the International Criminal Court*. (1998).
11. Şabas, U. (2015). *Beynəlxalq cinayət hüququ və Roma Statutu*. Press.
12. Vöneky, S. (2013). *International law and armed conflict: challenges in the 21st century*. T.M.C. Asser Press.